**Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı**

**"Şamaxı rayonunun Mədrəsə qəsəbəsində yeni tibb məntəqəsinin inşası" layihəsinin imzalanma mərasimi**

**2020-ci il 4 dekabr** tarixində, Yaponiyanın Azərbaycandakı Səfirliyində "Şamaxı rayonunun Mədrəsə qəsəbəsində yeni tibb məntəqəsinin inşası" layihəsinin imzalanma mərasimi həyata keçirilmişdir. Mərasimdə layihəni həyata keçirəcək "Konstitusiya Araşdırmalar Fondu" təşkilatının sədri qismində sabiq parlamentari cənab Əliməmməd Nuriyev çıxış etmiş, Yaponiyanın Azərbaycandakı Səfiri cənab Vada ilə yardım layihəsi müqaviləsini imzalamışdır.

Mərasim zamanı cənab Səfir Vada, yardım proqramı çərçivəsində imzalanmış layihənin nəzərdə tutulan bölgənin əhalisinin səhiyyə, təhsil, sosial rifah və iqtisadi inkişafına öz töhvəsini verəcəyinə ümid bəslədiyini bildirdi. Cənab Əliməmməd Nuriyev, sözügedən layihələrin heç bir problem olmadan icrasınına səy gösdərəcəyini və bu yardıma görə Yaponiya Hökumətinə öz dərin minnətdarlığı barədə öz fikrini bildirmişdir.

Sözügedən layihə çərçivəsində, Şamaxı rayonunun Mədrəsə qəsəbəsində yeni tibb məntəqəsinin inşası üçün **55,000 ABŞ dolları** məbləğində yardım göstəriləcək. Bundan əlavə, Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilmiş Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım layihələrinin ümumi sayı **265-i**, ümumi məbləği isə **22 milyon ABŞ dollarını** ötür.